


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 154 (24.041)

*17 avqust 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Türkmənistanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasovun etimadnaməsini qəbul edib.

***

Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveç Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Tobias Lorentzsonun etimadnaməsini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Marianxeles Belluşinin etimadnaməsini qəbul edib.

***

Həmin gün Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemannın etimadnaməsini qəbul edib.



*Dövlət proqramı icra olunur*

## Rəqəmsal ödəniş sistemi iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir

*Müasir dövrün ən mühüm inkişaf tendensiyalarından birini nağdsız iqtisadiyyat təşkil edir. Rəqəmsal ödənişlərin tətbiqi bankların maliyyə vəziyyətinin yaxşılaşmasına və pul dövriyyəsinin tənzimlənməsinə gətirib çıxarır ki, bu da kreditləşmə və investisiya imkanlarının gücləndirilməsi nəticəsində iqtisadi artıma təkan verir. Muxtar respublikada da nağdsız ödəniş infrastrukturunun təkmilləşdirilməsi və rəqəmsal ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi məqsədilə kompleks tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın da əsas məqsədi əhali, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş imkanlarının daha da genişləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir.*

Ötən müddətdə proqramda nəzərdə tutulan tədbirlərin uğurla reallaşdırılması rəqəmsal ödəniş xidmətlərinin əhatə dairəsinin genişləndirilməsinə səbəb olmuşdur. Bu istiqamətdə işlər cari ilin birinci yarısında da davam etdirilmiş, 79 POS-terminal, 6 bankomat və 39-u MilliÖn olmaqla, 44 ödəniş terminalı quraşdırılmışdır. Nəticədə, yarım ilin sonuna POS-terminalların sayı 1590, bankomatların sayı 118, ödəniş terminallarının sayı isə 154 olmuşdur.

Yeni ödəniş terminallarının quraşdırılması məsafəli bank xidmətlərindən istifadənin genişləndirilməsinə imkan yaradır. Bu sahədə rəqəmsallaşmanın tətbiqi ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin artırılmasına gətirib çıxarır. Görülən işlərin nəticəsidir ki, ilin birinci yarısında bankların kredit müştəriləri tərəfindən, ümumilikdə, 33 milyon 666 min manat məbləğində kredit ödənişi banka getmədən ödəniş terminalları vasitəsilə həyata keçirilmişdir. Həmçinin bu dövrdə məsafəli bank xidmətlərindən olan onlayn kart sifarişi xidmətinin tətbiqi də davam etdirilmişdir. Birinci yarım ildə xidmət vasitəsilə 7615 onlayn kart sifarişi həyata keçirilmişdir.

Proqramda nəzərdə tutulan tapşırıqlardan biri də özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada ödənişi ilə bağlıdır. Tapşırığın icrası istiqamətində cari ilin yanvar-iyun aylarında 13 vergiödəyicisi üzrə, ümumilikdə, 54 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilmişdir. Məqsəd muxtar respublikada nağd dövriyyənin həcminin minimuma endirilməsi və nağdsız ödəniş mühitinin daha da genişləndirilməsidir.

Proqramın icrasına uyğun olaraq maliyyə sövdələşmələrinin nağdsız hesablaşmalar vasitəsilə aparılması istiqamətində həyata keçirilən tədbirlər, öz növbəsində, vergi sisteminin səmərəliliyinin artmasına da şərait yaradır. Belə ki, ilin birinci yarısında muxtar respublikada 391 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 251 min 635 manat, 1465 vergiödəyicisi tərəfindən isə şəxsi kartları vasitəsilə 626 min 31 manat məbləğində vergi və sosial ayırmaların nağdsız qaydada ödənilməsi təmin edilmişdir.

Nağdsız ödənişlər sahəsində keyfiyyətli bank xidmətlərinin təşkilinə təsir edən ən mühüm faktorlardan biri də bu sahədə peşəkarlığın artırılmasıdır. Əhaliyə göstərilən bank xidmətlərinin ixtisaslı kadrlar vasitəsilə həyata keçirilməsi vaxta qənaət və vətəndaş məmnunluğu deməkdir. Proqramda müəyyənləşdirilmiş tapşırığın icrası məqsədilə birinci yarım ildə ödəniş kartları sahəsində çalışan bank mütəxəssislərinin bilik və bacarıqlarının artırılması üçün 3 təkmilləşdirici seminar keçirilmişdir. Keçirilən seminarlarda Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Banklar Assosiasiyasının təcrübəli ekspertlərinin iştirakı təmin olunmuşdur.

Nağdsız ödənişlərin inkişafı əhalinin maliyyə savadlılığının artırılmasından və rəqəmsal ödənişlərdən istifadəyə həvəsləndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Proqramda həm təhsil müəssisələrində təhsilalanların nağdsız əməliyyatların aparılmasına təşviq edilməsi, həm də kənd mərkəzlərində əhali ilə görüşlərin keçirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Bu tapşırıqların icrası birinci yarım ildə də diqqətdə saxlanılmış, ümumilikdə, 21 təhsil müəssisəsində 437 müəllim, eləcə də 560 şagird və tələbəyə nağdsız əməliyyatların aparılmasının əhəmiyyəti izah olunmuşdur. Həmçinin bu dövrdə muxtar respublikanın POS-terminal quraşdırılmış kənd mərkəzlərində sakinlərlə 14 maarifləndirici görüş keçirilmişdir.

Rəqəmsal ödənişlərin tətbiqinin genişləndirilməsi ilə bağlı Dövlət proqramlarının icrası müddətində ənənəvi xarakter alan "Nağdsız ödəyin, hədiyyə qazanın!" həvəsləndirici tədbirin reallaşdırılması da davam etdirilmişdir. Nağdsız ödəniş edən 431 şəxsə tədbirin 16-cı tirajı çərçivəsində, ümumilikdə, 25 min manat dəyərində hədiyyələr təqdim olunmuşdur.

Görülən işlər əhalinin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə sövq edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**"Şərq qapısı"**

## Ötən ay 142 nəfərə əmək pensiyası təyin edilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsi üçün iyul ayında da müvafiq işlər görülüb, pensiya ödənilməsinə 17 milyon 365 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsinə isə 311 min manat vəsait xərclənib. Eyni zamanda sığorta prinsipi ilə pensiya alanların hər birinə 2022-ci ilin üçüncü rübü üzrə verilməsi nəzərdə tutulan 50 manat maddi yardım pensiya ilə birlikdə ödənilib. Qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib.

Ötən ay pensiyaların qanunvericilikdə nəzərdə tutulmuş qaydada təyinatı üçün işlər görülüb, 106-sı yaşa, 15-i sağlamlıq imkanlarının məhdudluğuna, 21-i ailə başçısını itirməyə görə olmaqla, ümumilikdə, 142 vətəndaşa əmək pensiyası təyin edilib. Pensiya təyin edilən vətəndaşlardan 130-na ilk dəfə təyinat olub, 12-nə isə pensiya növündə dəyişiklik edilib. Qanunvericiliyə uyğun olaraq 539 sığortaolunana məcburi dövlət sosial sığorta haqları hesabına müavinət təyin olunub. Bundan başqa, dövlət icbari şəxsi sığortası üzrə daxilolmalar diqqətdə saxlanılmış, sığortaedənlər tərəfindən 533 min 428 manat vəsait fondun hesabına köçürülüb. Dövlət icbari şəxsi sığorta ödənişini almaq üçün12-si sağlamlıq imkanları məhdudluğa, 2-si az ağır xəsarətə görə olmaqla,14 hərbi qulluqçuya sığorta ödənişi həyata keçirilib. Ümumilikdə, 51 min 700 manat vəsait bu şəxslərin hesablarına köçürülüb.

Hesabat dövründə məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 12 milyon 450 min 700 manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan proqnozdan 20,5 faiz çoxdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 70,4 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılmışdır. Hesabat dövründə 1 hüquqi və 276 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınıb. Eyni zamanda 304 yeni əmək fəaliyyətinə başlayan sığortaolunana fərdi şəxsi hesab açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Müəllimlərin işə qəbulu üçün test imtahanları keçirilir





Muxtar respublikada ümumtəhsil məktəblərinin ixtisaslı kadrlarla komplektləşdirilməsi və kadr potensialının inkişaf etdirilməsi məqsədilə növbəti test imtahanlarının keçirilməsinə start verilib. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 2018-ci il 14 aprel tarixli Qərarına əsasən keçirilən müsabiqəyə ən çox Şərur (65), Ordubad (46) rayonları və Naxçıvan (29) şəhərindən olmaqla, ümumilikdə, 235 vakant vəzifə çıxarılıb.

2011-ci ildən bəri müxtəlif sahələr üzrə keçirilən imtahanlarda ilk dəfə olaraq müraciət edənlərin sayı 1000 namizədi ötüb ki, bu da işə qəbul imtahanlarının şəffaf şəkildə keçirilməsinin göstəricisidir. Budəfəki müsabiqəyə indiyə qədər bu istiqamətdə keçirilmiş imtahanlar üzrə rekord sayda namizəd müraciət edib. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə müəllimlərin işə qəbulu imtahanında 858 namizəd qeydiyyatdan keçmişdirsə, builki müraciət sayı ötənilkindən, təxminən, iki dəfə üstələyir. 1621 namizədin sənəd təqdim etdiyi müsabiqədə daha çox müraciət Naxçıvan şəhəri (374), Babək (297) və Şərur (266) rayonlarından çıxarılan vakant vəzifələr üzrə olub. Ayrı-ayrı ixtisaslara nəzər saldıqda isə ən sıx müsabiqə vəziyyəti ibtidai sinif (378), Azərbaycan dili və ədəbiyyat (231) və ingilis dili (198) müəllimliyi üzrə qeydə alınıb. Müsabiqəyə ən çox vakant vəzifə isə kimya (32), coğrafiya (26), fizika və ibtidai sinif müəllimliyi (hər biri üzrə 21) ixtisasları üzrə çıxarılıb.

Test imtahanlarında hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramına aid 40, tədris metodikası və təlim strategiyasına aid 20 test tapşırığı təqdim edilir.

Vakant vəzifənin tutulması üçün müraciət etmiş namizədlər arasında keçid balını yığmaqla ən yüksək bal toplayan müvafiq vəzifəyə təyin olunur. Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 50 faizini (30 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 75 faizini (45 bal), habelə musiqi, texnologiya, təsviri incəsənət, fiziki tərbiyə fənləri üzrə işə qəbul, o cümlədən rus bölməsində işləmək üçün test tapşırıqlarının 40 faizini (24 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir. İmtahan bitdikdən dərhal sonra namizədə "Test imtahanının nəticəsi haqqında arayış" verilir və müsabiqənin nəticələri mərkəzin internet portalında yerləşdirilir.

Test imtahanları avqustun 30-na qədər davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Muxtar respublikamızın elm-təhsil mühitində mühüm mövqeyə sahib olan Naxçıvan Dövlət Universiteti fəaliyyət göstərdiyi 55 il müddətində peşəkar və savadlı kadrların yetişdirilməsi yolunda cidd-cəhdlə çalışmış, ölkəmizə, eləcə də muxtar diyarımıza savadlı, intellektli kadrlar hazırlamaqla böyük maarifçilik yolu qət etməkdədir. Vurğulamaq yerinə düşər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ali təhsil ocağının maddi-texniki bazasının gücləndirilməsi, yeni ixtisasların yaradılması və onların gələcək perspektivlərinin müəyyən edilməsi daim diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, tələbələrin təhsil səviyyəsinin daha da yüksəldilməsi, onların nəzəri və praktik biliklərinin paralel inkişaf etdirilməsi baxımından universitetin beynəlxalq əlaqələrinin artırılması da burada yaradılan şəraitin əsas göstəricisidir. Bu mənada, Naxçıvan Dövlət Universitetində artıq 23 ildir, fəaliyyət göstərən Tibb fakültəsi yarandığı gündən etibarən müxtəlif ölkələr və universitetlərlə əməkdaşlıq qurmaqdadır.*



# Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri qardaş ölkədə istehsalat təcrübəsini uğurla başa vurub

Ötən günlərdə keçirilən Tibb fakültəsi tələbələrinin yay istehsalat təcrübələri də, bu mənada, təqdirəlayiq hadisə idi. Bununla bağlı fakültənin dekanı, dosent ***Elsevər Əsədov***la həmsöhbət olduq, həmin səfərlə bağlı təəssüratlarını öyrəndik.

Elsevər müəllim, ilk növbədə, Tibb fakültəsinin gələcək perspektivləri və beynəlxalq əlaqələrindən söhbət açaraq dedi: “Naxçıvan Dövlət Universitetinin son dövrlər bütün sahələrdə əldə etdiyi dinamik inkişaf açıq-aydın görünməkdədir. Bunun nəticəsidir ki, universitetimiz Azərbaycanın ali təhsil sistemində özünəməxsus mövqe qazanmışdır. Xüsusilə tibb təhsili sahəsində atılan addımlar universitetin nüfuzunu daha da yüksəltməkdədir. Bunu ötən dövrdə muxtar respublikamızda keçirilən I Beynəlxalq Tibbi Forum bir daha nümayiş etdirdi”.

Elsevər Əsədovun sözlərinə görə, fakültənin maddi-texniki bazasının yaxşılaşdırılması və kadr təminatının gücləndirilməsi tibb təhsili almaq istəyən tələbələrin sayını günü-gündən artırır. Bunun nəticəsidir ki, 2022-2023-cü tədris ilində Tibb fakültəsində 1600-dən çox tələbənin tədrisə başlayacağı gözlənilir. Bununla da ali təhsil ocağımızda yüksək səviyyədə qurulan beynəlxalq əlaqələr xarici ölkə universitetləri ilə əməkdaşlıq müqavilələrinin bağlanmasına, ikili diplom layihələrinin həyata keçirilməsinə, ortaq elmi araşdırmaların aparılmasına şərait yaratmışdır. Bu əməkdaşlıqlar çərçivəsində universitetin professor-müəllim heyəti il ərzində bir sıra nüfuzlu konqreslərə, sammitlərə dəvət olunurlar. Bu tədbirlər içərisində tibb təhsili alan tələbələrin qardaş Türkiyə Cümhuriyyətinin nüfuzlu universitetlərində keçdiyi ənənəvi yay istehsalat təcrübələrinin də xüsusi yeri vardır.



Elsevər müəllim deyir ki, Naxçıvan Dövlət Universitetində alitəhsilli tibbi kadr hazırlığına 1999-cu ildən başlanılıb. 2002-ci ildən isə xarici ölkələrdə istehsalat təcrübələri həyata keçirilməkdədir. Bu günədək tələbələr müxtəlif müddətlərdə qardaş ölkənin onlarla universitetinə ezam olunublar. İkiillik pandemiya müddətindəki məlum çətinliklərdən sonra builki istehsalat təcrübələri daha böyük heyətlə iştirakı və yeni əməkdaşlıqların qurulduğu universitetlərdə keçirilməsi ilə yadda qaldı. Əməkdaşlıq müqavilələrinə müvafiq olaraq ənənəvi yay təcrübələri qardaş ölkənin Ankara şəhərindəki Qazi və Ankara, Kayseri şəhərindəki Ərciyəs, Ərzurum şəhərindəki Atatürk və Trabzon şəhərində fəaliyyət göstərən Qaradəniz Texniki universitetlərinin klinikalarında 18 iyul 2022-ci il tarixdən 30 iyul 2022-ci il tarixədək davam etmişdir. Yay istehsalat təcrübələri üçün səfər edilən universitetlərin ikisi – Ankara və Qazi universitetləri ilə cari ildə ilk dəfə əməkdaşlıq müqavilələri bağlanmış, əvvəldən əməkdaşlıq müqavilələri mövcud olan Ərzurum Atatürk və Qaradəniz Texniki universitetləri ilə bu il əməkdaşlıq müqavilələri yenilənmişdir.

Yay istehsalat təcrübələrində, ümumilikdə, 18 müəllim, 5 həkim-rezident və 112 tələbə olmaqla, 135 nəfər iştirak etmişdir. Təcrübələrə Tibb fakültəsinin Müalicə işi, Tibbi profilaktika, Stomatologiya, Əczaçılıq, Tibb, Hərbi tibb, İctimai səhiyyə və Psixologiya ixtisaslarında təhsil alan tələbələr və fakültədə tədrislə məşğul olan həkimlər daxil edilmişdir.

Təcrübələr zamanı universitetin Tibb fakültəsinin rəhbərliyi ilə təcrübə keçirilən universitetlərin müvafiq qurumları arasında görüşlər təşkil olunmuş, əməkdaşlıq müqavilələrinin şərtlərinə uyğun gələcək işlər müzakirə edilmişdir. Bu görüşlərdə qardaş ölkə universitetlərinin professorları, uzman həkimləri Tibb fakültəsində təhsil alan tələbələr üçün onlayn və üz-üzə dərslərin təşkili, ortaq elmi tədqiqatlar, birgə konfransların keçirilməsi, doktorantura təhsilində qardaş ölkə universitetlərinin yüksəkixtisaslı mütəxəssislərin rəhbərlik etməsi və sair müzakirə edilmiş, müvafiq razılaşmalar əldə olunmuşdur.



Bəhs olunan təcrübələrin ən maraqlı məqamlarından biri də Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin məzunları və hazırda universitetdə rezidentura təhsili alan və xaricdə stajorluqda olan həkim-rezidentlərlə görüşlərin təşkilidir. Ankara şəhərinə ezam olunan heyətdəki müəllimlərimizin Hacəttəpə, Ankara və Qazi universitetlərində təhsilini davam etdirən və uzman həkim kimi çalışan məzunlarla görüşləri keçirilmişdir. Məzunlarımızın təkcə respublikamızda deyil, ölkə hüdudlarından kənarda fəaliyyət göstərməsi universitetimizin tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir, həmçinin gələcəkdə muxtar respublikamızın ixtisaslı tibbi kadrlara olan tələbatının ödənilməsi baxımından da təqdirəlayiqdir.

Təcrübələr müddətində həftə sonları təşkil olunan sosial proqramlar da həkim-tələbə kollektivi üçün yaddaqalan olmuşdur. Heyətin Ankara şəhərində Mustafa Kamal Paşa Atatürkün məzarının yerləşdiyi Anıtqəbir və ümummilli lider Heydər Əliyevin adına salınmış möhtəşəm Heydər Əliyev Parkını ziyarətləri, Kayseri şəhərində əfsanəvi Kapadokya səyahəti, Trabzon şəhərində olan heyətin Uzungöl və Ərzurum şəhərindəki heyətin Çağlayan şəlaləyə səyahətləri tələbələrə xoş anlar yaşatmışdır.



Onu da qeyd etmək lazımdır ki, yay istehsalat təcrübələrindən təkcə tələbə və rezidentlərimiz deyil, həkimlərimiz də faydalanırlar. Xüsusilə qeyd etmək istəyirəm ki, Tibb fakültəsinin əməkdaşı, tibb üzrə fəlsəfə doktoru, dosent Mətləb İbrahimovun uşaqlarda allergik testlərin aparılması üzrə keçdiyi kursların nəticəsi olaraq bu yaxınlarda universitetimizin klinik xəstəxanasında allergik testlər tətbiq edilməyə başlanılacaqdır.






Elsevər Əsədov söhbətinin sonunda onu da bildirdi ki, tələbələrin nəzəri bilikləri ilə yanaşı, bacarıqlarının artırılmasında növbəti hədəfimiz 2022-ci ildə əməkdaşlıq müqaviləsi bağladığımız İ.M.Seçenov adına I Moskva Dövlət Universitetinin Bakı Filialının Simulyasiya Mərkəzində təlimlərə başlamaları və akkreditasiya olunmalarıdır. Bu prosesin də 2022-2023-cü tədris ilindən etibarən həyata keçirilməsi planlaşdırılıb.

Növbəti müsahibimiz Kayseri şəhərində fəaliyyət göstərən Ərciyəs Universitetində istehsalat təcrübəsində iştirak edən Ümumi təbabət və klinik fənlər kafedrasının professoru ***İsa Abdullayev*** oldu. Professor keçirilən təcrübə haqqında öz təəssüratlarını bölüşərək dedi: “Azərbaycan Respublikası Təhsil Nazirliyinin tədris proqramına və universitetlərarası əməkdaşlıq müqavilələrinə uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin bir qrup həkim və 25 nəfərlik tələbə heyəti Türkiyə Cümhuriyyətinin Kayseri şəhərində fəaliyyət göstərən Ərciyəs Universitetində istehsalat təcrübəsində iştirak etdik. İyul ayının 18-də bizi Kayseri Ərciyəs Universitetinin Tibb fakültəsinin dekanlığında qarşıladılar. Bu universitetlə çoxillik dostluq əlaqələrimiz olduğundan bizim gəlişimizə qədər, artıq tələbələrin bir neçə qrupa bölünməsi qrafiki hazırlanmış və hansı bölmələrdə fəaliyyət göstərəcəyimiz planlaşdırılmışdı.

Elə ilk gündən tələbələr təcrübə keçəcəkləri bölmələrə paylandılar. Tələbələr müxtəlif şöbələrdə yüksəkixtisaslı peşəkar həkimlərin rəhbərliyi ilə öz nəzəri biliklərini təcrübi vərdişlərlə möhkəmləndirməyə başladılar”.

Təcrübələrdə fəal iştirak edən tələbələrlə də həmsöhbət olduq, onların təcrübə barədə fikirlərini öyrəndik. Universitetin Müalicə işi ixtisası üzrə V kurs tələbəsi ***Nurşən Sadıqlı*** təcrübə müddətindən danışarkən bildirdi: “Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin Kayseri Ərciyəs Universiteti arasında bağlanan müqaviləyə əsasən 4 müəllim, 1 rezident və 25 tələbə olmaqla, 17- 29 iyul tarixləri arasında Ərciyəs Universiteti Xəstəxanasında yay istehsalat təcrübəsində olduq. Bu müddətdə biz müxtəlif şöbələrdə ixtisaslı həkimlərin müayinə və müalicə üsullarını müşahidə etməklə yanaşı, bəzi əməliyyatlarda bilavasitə assistent kimi iştirak etdik. Mən beyin cərrahiyyəsinə olan marağıma görə bu şöbədə daha çox oldum və cərrahi əməliyyatlarda iştirak etdim. Qardaş ölkənin həkim-cərrahlarının Naxçıvan Dövlət Universitetinin tələbələrinə xüsusi diqqəti burada da göz önündə idi. Tibb tələbələrinin daha keyfiyyətli təhsil alması və gələcəyin bilikli, savadlı həkim kadrları sırasına daxil olması üçün universitetimizin Tibb fakültəsində yaradılan şərait və imkanlar üçün tələbələr adından dərin minnətdarlığımı bildirirəm”.

Universitetin Müalicə işi ixtisası üzrə IV kurs tələbəsi ***Aysel İsayeva*** da öz fikirlərini bizimlə bölüşdü. O dedi: “İllər öncə oxuduğum hikmətli fikir məni hər zaman həvəsləndirib: “Ardınca gedə biləcək cəsarətiniz varsa, bütün arzularınız həyata keçəcək”. Bəli, həqiqətən də, bu belədir. Hələ kiçik yaşlardan ən böyük arzu və xəyalım olan həkimlik sənəti məni 3 il əvvəl Bakıdan bu gözəl diyara, dilbər məkana, Naxçıvana gətirib çıxardı. Hazırda IV kursda oxuyuram. Çıxdığım bu yolda faydalandığım həkimlər, müəllimlər daha dərin biliklərə yiyələnməyimiz üçün əllərindən gələni edirlər ki, tam mütəxəssis kimi yetişək. Yenicə qayıtdığımız Ankara səfərimiz də bu məqsədə xidmət edir.

Mən bu səfərə getməmişdən əvvəl yaxın gələcəkdə həkimlik sənətimi hansı sahədə dərinləşdirib, təkmilləşdirmək haqqında çox qərarsız idim. Təcrübə proqramı ərzində Qazi Universiteti Xəstəxanasında müxtəlif şöbələrdə həkimlərin necə cəsarətlə, tərəddüd etmədən qatıldıqları əməliyyatlara dəfələrlə şahid oldum. İki açıq ürək əməliyyatında assistent kimi iştirakıma zəmin yaratdılar. Bu əməliyyatlar məndə ürək-damar cərrahiyəsinə olan marağı daha da artırdı, hansı ixtisası seçəcəyimə dəqiq qərar verdim. Bizə yaradılan şəraitə görə tələbə yoldaşlarım adından minnətdarlığımı bildirirəm”.

*Bəli, əziz oxucularımız. Bu gün muxtar respublikamızda təhsilə göstərilən diqqət və qayğı ilbəil yeni uğurlu nəticələrdə özünü göstərir. Müsahiblərimizin maraqlı fikirlərindən gəldiyimiz qənaət budur ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində yaradılan müasir şərait muxtar diyarımızın səhiyyəsinə öz töhfəsini verəcəkdir.*

**Bülbül QULİYEVA**
**Aysel YUSİFZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri***

# Çağırışçı gənclərin xüsusi hərbi ixtisaslar üzrə hazırlığı davam etdirilir



Silahlı Qüvvələrin bilikli və peşəkar hərbi mütəxəssislərlə komplektləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon (şəhər) idarə və şöbələrində qeydiyyatda olan çağırışçılar arasından seçilmiş namizədlər Naxçıvan, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəblərinə təhvil verilmişdir. Çağırışçıların sürücü ixtisaslarına yiyələnməsi üçün başlanılan tədris prosesi noyabrın sonunadək davam etdiriləcək.

Qeyd edək ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon (şəhər) idarə və şöbələri tərəfindən 15 yaşı tamam olmuş kişi cinsli vətəndaşlar ilkin hərbi qeydiyyata alınarkən onların hərbi mütəxəssis hazırlığı kurslarına göndərilməsi və xüsusi hərbi ixtisaslar üzrə hazırlanması məqsədilə çağırışçılarla fərdi söhbətlər aparılır və sürücü hərbi ixtisasına yiyələnmək arzusunda olan çağırışçılar tibbi komissiyadan keçirilərək hərbi xidmətə yararlılığı təyin olunduqdan sonra təhsil müəssisələrinə göndərilir. Texniki Peşə və Sürücülük məktəblərində tədris müdavimlərə hərbi-vətənpərvərlik ruhunun aşılanması istiqamətində təşkil edilir. Sürücülük kursunu müvəffəqiyyətlə bitirən çağırışçılar müvafiq imtahanlardan keçdikdən sonra sertifikat və “BC” kateqoriyalı sürücülük vəsiqəsinə yiyələnərək müddətli həqiqi hərbi xidmətə göndərilir.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

# Vətənə, yurda sevgi aşılayan, turizmə maraq yaradan məkan...

*Rəvayətə görə, tanınmış rus yazıçı və pedaqoqu Anton Makarenkonun yanına tərbiyə keçməsi üçün körpə bir uşaq gətirirlər. Görkəmli pedaqoq uşağın 6 aylıq olduğunu biləndə, "artıq gecdir" söyləyir. Antik dövrdən bu günə kimi təməlin önəmli olduğunu aşılayan, isbat edən onlarla belə həyat hadisəsini, dünyagörmüş insanların, aqillərin təsdiqini tapan fikir və mülahizələrini qeyd etmək mümkündür. İllərin təcrübəsi göstərir ki, uşağın erkən yaşdan yaradıcı fəaliyyətə cəlbi vacibdir və belə olan halda daha effektiv nəticə əldə edilir. Tanınmış sənət və peşə sahiblərinin keçdiyi uğurlu yola nəzər salanda da uşaqlıq illərində qazanılan bilik və bacarığın necə önəmli olduğu ortaya çıxır...*

Uşaq və yeniyetmələrin zərərli vərdişlərdən uzaq, yüksək qabiliyyətə malik yaradıcı gənclər kimi yetişməsində muxtar respublikamızda fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin rolu böyükdür. Məktəblilərə təbiəti sevdirən, yurda məhəbbət hissləri təlqin edən, onlara turizmin anlayışlarını öyrədərək bu sahə üzrə geniş nəzəri bilik və praktik təcrübə aşılayan Naxçıvan Muxtar Respublikası Turist Diyarşünaslıq Mərkəzi barədədir budəfəki söhbətimiz. Əvvəlcə mərkəz haqqında qısaca məlumat verək: – 1973-cü ildə Naxçıvan şəhərində Gənc Turistlər Stansiyası kimi 7 əməkdaşla yaradılan müəssisə 2005-ci ildən Turist Diyarşünaslıq Mərkəzi adı ilə fəaliyyətini davam etdirir. 2020-ci ilin sentyabr ayında Atatürk küçəsindəki 5 mərtəbəli binanın 4-cü mərtəbəsinə





köçürülən Turist Diyarşünaslıq Mərkəzində yaradılan 22 adda dərnəyə 1360 məktəbli cəlb olunub. Mərkəzdə təşkil olunan məşğələlərdə əsas məqsəd uşaqların asudə vaxtlarını maraqlı, əyləncəli keçirmələrini təmin etmək, gənc nəslə doğma diyarı, turizmi sevdirmək və vətənpərvərlik hissləri aşılamaq, onları tarixi keçmişimizlə, müasir inkişaf parametrləri, turizm potensialı ilə tanış etməkdən ibarətdir.



Mərkəzin direktoru Sevda Məmmədova deyir ki, məşğələlərdə məktəblilər təbiətin möcüzələrlə dolu sirli-sehrli aləminə yaxından bələd olur, qarşılaşdıqları mənzərələr, hadisələr barədə bir-biri ilə fikir mübadiləsi aparmaqla təbiətin sonsuz rəngarəngliyinin, ətraf aləmdə baş verənlərin mahiyyətini dərindən dərk etməyə çalışırlar. Ayrı-ayrı müəssisələrə səyahətlər, təbiət qoynunda keçirilən səyyar görüşlər zamanı uşaqlara ölkəmizin, eləcə də Naxçıvanın tarixi, mədəniyyəti, müasir inkişafı, iqtisadiyyatı, turizm potensialı ilə bağlı ətraflı məlumatlar verilir ki, bunu da bir növ ölkəmizin sabahına, eləcə də şagirdlərin gələcək həyatlarına, turizm sahəsi üzrə kadr cəlbinə bir yatırım kimi də dəyərləndirmək olar. Məşğələlər vasitəsilə uşaqlar bizi yaşadan, sağlamlığımızın keşiyində duran, qayğı göstərən ana təbiətin, eləcə də yaşadığımız torpağın, yurdun, maddi mədəniyyət nümunələrinin qədir-qiymətini dərindən dərk edirlər. Tədbirlər zamanı balacalara doğma diyarımızın təbiətini daha dərindən öyrənmək, sevmək, qorumaq, onun təbii sərvətlərindən daha qənaətcilliklə, səmərəli şəkildə istifadə etmək kimi keyfiyyətlər aşılanır. Bundan başqa, mərkəzdə tarixi keçmişimizlə bağlı yer alan vəsaitlər, məntiqi düşüncəni artıran kitablar və bədii ədəbiyyatlar məktəblilər tərəfindən mütaliə olunur. Əsərlərdəki həyat hekayələri, hadisələrlə bağlı aparılan müzakirələr, diskussiyalar uşaqların erkən yaşlardan dünyagörüşünün və mütaliə vərdişlərinin formalaşmasına, fikir yürütmək, nəticə çıxarmaq kimi həyat üçün önəmli olan xüsusiyyətlərin inkişafına köməklik edir. Sevindirici haldır ki, dərnək üzvləri məşğələlərə, ekskursiyalara böyük həvəs və maraq göstərir, gəzintilər zamanı tanış olduqları abidələrin maketlərini hazırlayırlar. Bunun üçün mərkəzdə ayrıca otaq da yaradılıb və orada tariximiz, milli kimliyimiz, xüsusilə də Vətən müharibəsində qazanılan Zəfərlə bağlı uşaqların əl işlərindən ibarət sərgi nümayiş etdirilir.

Yeniliklərlə dolu dəyişən, inkişaf edən proseslərə uyğun olaraq son iki tədris ilində mərkəz tərəfindən 15-dən artıq yeni dərnək yaradılıb. Həmin dərnəklərin xarakterik xüsusiyyətlərini ayrı-ayrılıqda təhlil etdikdə onların gələcəyin turizmçisi kimi yetişmək istəyən uşaqlar üçün nə dərəcədə önəmli olduğu ortaya çıxır.

Deyirlər, təbiət eynən ana kimidir. Yedirdir, içirdir, geyindirir, amma heç zaman bundan yorulmur. Bu mənada, hər birimiz dərindən düşünməliyik ki, bizə qayğı ilə yanaşan, nemətlərini əsirgəməyən təbiətdə yaşayan bütün canlıların elə özümüz kimi yaşamaq haqqı vardır. Axı bizim kimi onlar da ana təbiətin "övladlarıdır". Bəzən bu amili çoxlarımız unudur, təbiətə etinasız münasibət göstəririk. Belə mənfi hallara yol verməyimiz həyatımızın ayrılmaz parçası sayılan ana təbiəti, onun önəmini dərindən dərk etməməkdən irəli gəlir. Mərkəzdə fəaliyyət göstərən "Ekoturizm" və "Geoturizm" dərnəklərinin əsas vəzifəsi də məhz şagirdləri vətənpərvərlik ruhunda tərbiyə etmək, onlara muxtar respublikanın təbii sərvətlərini qorumaq, mühafizə etmək, təbiətdən düzgün faydalanmaq kimi insani keyfiyyətləri düzgün şəkildə aşılamaq, zərərli vərdişlərdən uzaqlaşdırmaqdır. Təbiət qoynunda keçirilən məşğələlərdə şagirdlər doğma diyarımızın coğrafi mövqeyi, bitki örtüyü, heyvanlar aləmi, iqlimi, faydalı qazıntıları, mineral suları, bir sözlə, yeraltı və yerüstü təbii sərvətləri barədə geniş məlumatlandırılır, onlara turizmin bu növləri üzrə praktik biliklər verilir. Şagirdlər ətraf mühitə qarşı həssaslığın, canlıların qayğısına qalmağın əhəmiyyətini öyrənməklə gələcəkdə turist



zonalarına səyahət etdikdə nələrə diqqət yetirməli olduqlarını bilirlər.

"Tarixi-memarlıq" dərnəyi, adından da göründüyü kimi, bütün yönləri ilə olduqca əhəmiyyətlidir. Məşğələ müddətində Azərbaycanın qədim, orta əsr və yeni dövr memarlıq ənənələri, məktəb yaratmış görkəmli memarları haqqında şagirdlərə ətraflı məlumatlar verilir. Naxçıvan memarlıq məktəbinə məxsus abidələr memarlıq xüsusiyyətləri, heykəltəraşlıq sənətinin inkişaf tarixi baxımından şərh edilir, onların qorunub ilkin variantında gələcək nəsillərə ötürülməsinin vacibliyi aşılanır. Diyarşünaslıq və incəsənəti üzvi surətdə əks etdirən məşğələlər vasitəsilə şagirdlər bu sahələr üzrə zəngin bilik və bacarıqlara yiyələnir, onlarda milli, beynəlmiləl dəyərlərə maraq, hörmət hissi yaranır, insan cəmiyyətinin mədəni təşəkkülü haqqında dolğun təsəvvürlər formalaşır. Müxtəlif dövrlərdə mövcud olan memarlıq cərəyanları, onların tərkib hissələri və özünəməxsus xüsusiyyətləri məktəblilərə izah olunur. Mərkəzdə muxtar respublikamızda mövcud olan tarixi abidələrin bərpadan əvvəl və sonrakı fotoları da vardır ki, bunun köməkliyi ilə şagirdlər memarlıq elementlərini, ornamentləri, tikililərdə öz əksini tapan sənət sahələrinin incəliklərini daha dərindən öyrənə bilir, bütün bunların əsasında abidələrin maketlərini hazırlayırlar.

"Duz üzərində sənət" dərnəyində sənət növünün xüsusiyyətləri şagirdlərə aşılanır, incəsənət üzrə mövcud qabiliyyətlər bu yöndə inkişaf etdirilir. Məktəblilər duz üzərində işləməyin müxtəlif üsullarını mənimsəməklə həm də əmək mədəniyyətinə yiyələnirlər . "İdman turizmi" dərnəyi məktəblilərin idman növlərinə maraq göstərməsinə həm zehni, həm də fiziki cəhətdən sağlam formalaşmalarına təsir göstərir. Məşğələlərdə şagirdlər müxtəlif oyun növləri ilə tanış olur, onları nəzəri cəhətdən öyrənərək praktikada düzgün tətbiq etməyə çalışırlar. Dərnək üzvləri arasında mütəmadi olaraq keçirilən yarışlar sağlam rəqabət hissi yaradır ki, bu da şagirdin ünsiyyətcilliyini, çevikliyini, dərhal qərar vermək bacarığını artırmaqla zehni inkişafını şərtləndirir. Yeni yaradılan, turizm sahəsi üzrə xüsusi önəm daşıyan rus və ingilis dili dərnəkləri isə məktəblilərin dil öyrənmə bacarıqlarını inkişaf etdirməklə onların beynəlxalq aləmdə gedən inteqrasiya prosesləri ilə ayaqlaşmalarına imkanlar açır. Bu dərnəklər həm də məktəblilərin gələcəkdə muxtar respublikamızın turizm potensialını lazımi şəkildə təbliğ edərək diyarımıza xeyli sayda turist cəlbinə nail olmalarına şərait yaradır.

*Göründüyü kimi, Naxçıvan Muxtar Respublikası Turist Diyarşünaslıq Mərkəzində son bir neçə tədris ilində uşaqlara tarixi keçmişimizi, milli-mənəvi dəyərlərimizi aşılamaqla yanaşı, onların dünyada gedən innovativ yeniliklərdən geri qalmaması, turizmin ayrı-ayrı növlərinin öyrədilməsi naminə yeni ideyalar üzrə məqsədli iş aparılır. Yaradılan dərnəklərin, keçirilən məşğələlərin hər birinin mahiyyətinə vardıqca uşaqların dərin biliklərə, zəngin təcrübəyə malik turizmçi gənclər kimi yetişəcəklərinə həm öz gələcəklərini, həm də ölkəmizin sabahını etibarlı təmin edəcəklərinə əminlik yaranır.*

**✍ Nail ƏSGƏROV**

# Muxtar respublikanın 8 müəllimi ölkə üzrə keçirilən VI qrant müsabiqəsinin qalibi olub

*Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda müəllim əməyinə yüksək qiymət verilir. Göstərilən diqqət və qayğının nəticəsidir ki, öz fəaliyyəti ilə seçilən 400-dən çox müəllim fəxri adlara layiq görülüb, medallarla təltif olunub. Qürurvericidir ki, müəllimlər şagirdlərə müasir biliklər aşılamaqla yanaşı, müxtəlif yarış və müsabiqələrdə də iştirak edərək uğur qazanırlar.*

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsis edilən və hər il keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsinin builki nəticələri açıqlanıb. Bu müsabiqədə də ümumtəhsil məktəblərinin müəllimləri iştirak edərək uğurlu nəticələr əldə ediblər. Müsabiqə ümumtəhsil müəssisələri kateqoriyası və fərdi kateqoriya üzrə keçirilib və müsabiqəyə, ümumilikdə, 1101 layihə təqdim edilib. Daxil olan layihələrin 256-sı ümumi təhsil müəssisələrinin, 845-i təhsilverənlərin fərdi layihələri olub. Bütün layihələr ekspert qrupları tərəfindən 100 ballıq şkala ilə 9 meyar əsasında qiymətləndirilib və ən yüksək bal toplayan 299 layihəyə qrant verilməsinə dair qərar qəbul edilib.

Qeyd edək ki, VI qrant müsabiqəsinin keçirilməsində başlıca məqsəd təhsil müəssisələrinin və təhsilverənlərin fəaliyyətində inkişafı dəstəkləmək, onların innovativ fəaliyyətini stimullaşdırmaq və təhsilalanlar üçün daha əlverişli təhsil mühitinin yaradılmasına nail olmaqdan ibarətdir. Qrant müsabiqəsi üzrə prioritet hesab olunan istiqamətlər müəyyən edilərkən nəzərə alınan ən önəmli faktor həmin istiqamətlərdə həyata keçiriləcək layihənin məktəb mühitinə və pedaqoji işçilərin inkişafına müsbət təsir göstərə bilməsidir.

Adıçəkilən müsabiqəyə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərindən 50 müəllim qatılıb. Onlardan 8-i – Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin müəllimi Natella Rzayeva "Biologiya dərslərinə 3D texnologiyalarının tətbiqi", 7 nömrəli tam orta məktəbin müəllimi Fəridə Əliyeva "Duolingo tətbiqi ilə ingilis dilini əylənərək öyrənək", Şərur rayon Püsyan kənd tam orta məktəbinin müəllimi Zakir Babayev "Məktəbdə psixososial durumun yaxşılaşdırılması, valideynlərin məktəb həyatında iştirakının genişləndirilməsi", Culfa rayon Əlincə kənd tam orta məktəbinin müəllimi Səma Həsənli "Gənc mühasib şagirdlər", Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Günel Quliyeva "Sağlamlıq imkanları məhdud uşaqlar üçün sağlam psixoloji mühit yaratmaq məqsədilə müəllim, valideyn və şagird arasında münasibətlərin tənzimlənməsi", Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin müəllimləri Aytən Kərimova "Gələcək üçün əl-ələ!", Xanım Əliyeva "Balaca rəssamlar", Qabıllı kənd tam orta məktəbinin müəllimi Nəzrin Seyidova isə "Gələcəyin unikal açarı" fərdi kateqoriyaları üzrə qalib olublar.

Biz də həmin müəllimlərin təəssüratlarını öyrəndik və onların fikirlərini oxuculara təqdim edirik:

***Zakir Babayev – Şərur rayon Püsyan kənd tam orta məktəbinin müəllimi:*** – Layihəmin məqsədi Şərur rayonunda yerləşən məktəblərdə valideyn-şagird-məktəb üçbucağının qurulması və daha da inkişaf etdirilməsidir. Layihəmiz şəffaf, demokratik və keyfiyyətli öyrətmə sistemilə vəhdətdə daha yüksək nəticələr əldə olunmasına şərait yaradacaqdır.

***Natella Rzayeva – Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin müəllimi:*** – Layihəmin məqsədi biologiya dərslərində 3D texnologiyalarının tətbiqi ilə şagirdlərin ən çətin mövzuları asanlıqla və maraqla mənimsəmələrini təmin etməkdir. Layihənin icrası zamanı məktəbin STEAM kabinəsində yaradılan şəraitdən istifadə edilərək 3D printer vasitəsilə bir çox mövzunu əyani şəkildə tədris etmək imkanı yaranacaq.

***Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin müəllimi Xanım Əliyeva*** öz layihəsini Kəngərli rayonundan olan 8 şəhidin əziz xatirəsinə həsr edib. Müəllim məktəbdə "Balaca rəssamlar" adlı rəsm dərnəyini yaradaraq onların xatirəsini əbədiləşdirmək istəyir.

***Culfa rayon Əlincə kənd tam orta məktəbinin müəllimi Səma Həsənli***nin layihəsi isə şagirdlərin maliyyə səriştəsini düzgün formalaşdırmaq, onlara maddi vəsaitlərindən səmərəli istifadə etməyi öyrətmək, həmçinin gələcək fəaliyyətləri üçün zəruri olan karyera seçimində düzgün addımlar atmalarına təkan verməkdir.

Məlumdur ki, bu gün dünyada ekoloji problemlər ən vacib məsələlərdən biridir. ***Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin müəllimi Aytən Kərimova*** öz layihəsi ilə bu problemlərin həllində məktəblilərin yaxından iştirakını təmin etməyi, bu mövzuda şagirdlərə təlimlərin keçirilməsi, diskussiyaların aparılması, onlarda ekoloji fəlakətlərin mahiyyəti barədə müəyyən təsəvvürlərin yaradılması, ətraf mühit, insan və təbiət arasında qarşılıqlı əlaqələrin vacibliyini aşılamaqdır.

***Həmin rayonun Qabıllı kənd tam orta məktəbinin müəllimi Nəzrin Seyidova***nın layihəsində isə əsas məqsəd şagirdlərə ingilis dilinə hobbi kimi yanaşaraq həvəsləndirib öyrənməyə, rahat və əyləncəli interaktiv metodlarla dünyagörüşü və informasiya azlığını aradan qaldırmaqla ingilis dilinin 4 məzmun xətti üzrə birlikdə araşdırmaq, paralel şəkildə dinləmə-anlama, danışıq, oxu və yazı bacarıqlarını təkmilləşdirmək üçün dərsdən sonra söhbət klubu yaradılmasından ibarətdir.

***Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin müəllimi Fəridə Əliyeva***nın layihəsi də bütün yaş qruplarından olan şagirdlərə "Duolingo" tətbiqi vasitəsilə ingilis dilini əylənərək öyrətmək məqsədi daşıyır.

***Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Günel Quliyeva***nın layihəsi məktəblərdə psixoloqları təlimlərə cəlb etməklə onların fəaliyyətinin yüksəldilməsinə, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar üçün sağlam psixoloji mühit yaradaraq onların məktəbdə fəallığının artırılması, öz həmyaşıdları ilə birlikdə davamlı olaraq bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə nail olmaqdır.

Biz də müsabiqədə qalib olan müəllimləri təbrik edir, onlara uğurlar arzulayırıq.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Mülki hüququn olduqca böyük və mürəkkəb bir sahəsi olan vərəsəlik hüququ hər zaman olduğu kimi, günümüzdə də öz aktuallığını qoruyub saxlamaqdadır. Deyə bilərik ki, ən həssas mənəvi xüsusiyyətləri özündə cəm edən mülki hüquq normaları məhz vərəsəlik münasibətləri ilə bağlı olanlardır. Vərəsəlik münasibətləri özlüyündə əmlak xarakterli məsələləri ehtiva etsə də, miras qoyan öz əmlakı ilə bağlı son iradəsini həyata keçirərkən ətrafdakıların ona qarşı münasibətlərini, özünə və yaxınlarına qarşı davranışlarını, eləcə də onların ehtiyaclarını və digər əhəmiyyətli bildiyi göstəriciləri nəzərə almaqla hərəkət edir.*

# Vərəsəlik hüququnun həyata keçirilməsinin qanuni təminatları

Vərəsəlik hüququ ölmüş şəxsin əmlakının və bununla bağlı hüquq və vəzifələrinin qanun və ya vəsiyyət üzrə vərəsələrə keçməsi qaydalarını müəyyənləşdirən hüquq normalarının məcmusudur. Eyni zamanda vərəsəlik hüququ vəsiyyət etmək hüququ ilə yanaşı, miras almaq hüququna da təminat verir. Yəni vərəsəlik hüququ bir tərəfdən vəsiyyət edə bilməyi nəzərdə tutursa, digər tərəfdən isə vərəsə olaraq mirası qəbul edib, ona sahib olmağı nəzərdə tutur.

Fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən onun ölmüş elan edilməsi ilə miras açılır, bunun nəticəsində müəyyən şəxslər vərəsəliyə çağırılır. Mülki qanunvericilik miras əmlakın başqa şəxslərə keçməsinin iki növünü müəyyən etmişdir. Mülki Məcəllənin 1133-cü maddəsinə görə, ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) ya qanun üzrə, ya da vəsiyyət üzrə, yaxud da hər iki əsasla keçir. Qanun üzrə vərəsə sayılan şəxslər və onların vərəsəliyə çağırılması növbəlilik üzrə müəyyən edilir. Qeyd edək ki, qanunvericilik vərəsəliyin beş növbəliliyini müəyyən etmişdir. Vərəsələrin növbə ardıcıllığı ilk olaraq onların miras qoyanla mənşəcə yaxınlığına (qohumluğuna) əsaslanır:

Birinci növbənin əhatə dairəsinə miras qoyanın övladları, həmçinin miras qoyanın ölümündən sonra doğulmuş uşağı, arvad (ər), valideynlər (övladlığa götürənlər) daxildir.

İkinci növbəyə – ölənin bacıları və qardaşları daxildir. Miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Çünki qanun üzrə vərəsəlik zamanı miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər vərəsələr ola bilərlər. Onlar ölmüş valideynlərinə çatası paydan bərabər miras alırlar.

Üçüncü növbəyə – həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba daxildir. Onların anası və atası (nənənin anası və atası, babanın anası və atası ) o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın.

Dördüncü növbəyə – xalalar və bibilər, dayılar və əmilər daxildir. Onların uşaqları isə beşinci növbə üzrə vərəsə sayılırlar.

Qeyd edək ki, qanun üzrə vərəsəlik zamanı bütün vərəsələr eyni vaxtda vərəsəliyə çağırılmırlar, qanunvericiliklə müəyyən edilən qaydaya əsasən əvvəlki növbənin vərəsələrindən, heç olmasa, birinin mövcudluğu sonrakı növbənin vərəsəliyini istisna edir. Bu fikri sadə formada ifadə etsək, miras qoyanın qardaş və ya bacılarından birinin sağ olması baba və nənənin vərəsəliyini istisna edəcək. Çünki miras qoyanın qardaş və bacısı ikinci növbə üzrə vərəsə olduğu halda, baba və nənə üçüncü növbə vərəsələr sırasına daxildilər.

Qanun üzrə vərəsəlik o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır. Göründüyü kimi, qanunvericilik qanun üzrə vərəsəliyin hüquqi qüvvəsini vəsiyyətnamənin mövcud olmaması və ya etibarsız olması ilə şərtləndirir. Çünki qanun üzrə vərəsəlik zamanı miras şəxsin iradəsindən asılı olmayaraq, vərəsələrə keçir. Lakin şəxs vəsiyyətnamə tərtib etdiyi zaman öz iradəsinə əsaslanır. Öz əmlakını vərəsələri arasında bölüşdürərkən hansı əmlakın kimə vəsiyyət edilməsini özü müəyyənləşdirir. Qeyd edilənlərdən aydın olur ki, vəsiyyət üzrə vərəsəlik qanun üzrə vərəsəliyə nisbətən üstünlük hüququna malikdir. Həm də vəsiyyətnamə üzrə vərəsəliyin digər əhəmiyyəti ondan ibarətdir ki, vərəsələr arasında gələcəkdə baş verə biləcək anlaşılmazlığın (konfliktin) qarşısı alınmış olur.

Vəsiyyət üzrə vərəsəlik zamanı miras əmlak vəsiyyətnamədə göstərilən şəxslərə keçir. Bu zaman vərəsəliyin şərtləri və qaydası vərəsəlik hüququnun əsas prinsiplərindən olan vəsiyyət etmək azadlığına uyğun olaraq miras qoyanın iradəsi ilə müəyyən edilir. Belə ki, fiziki şəxs ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini həm vərəsələr sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə qoya bilər.

Vəsiyyətnamənin tərtib edildiyi məqamda öz hərəkətləri barəsində şüurlu mühakimə yürüdə və öz iradəsini aydın ifadə edə bilən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli şəxs vəsiyyət edə bilər. Qanunvericiliyə əsasən vəsiyyətnamə yazılı şəkildə tərtib edilməlidir, şifahi vəsiyyətnaməyə yol verilmir. Yazılı formada olan vəsiyyətnamə həm notariat qaydasında (notariat forması) həm də sadə yazılı formada tərtib edilə bilər. Notariat forması tələb edir ki, vəsiyyətnaməni vəsiyyət edən tərtib etsin və imzalasın, notarius, notariusun olmadığı yerlərdə isə müvafiq icra hakimiyyəti orqanları təsdiqləsin. Sadə yazılı formada tərtib edilən vəsiyyətnaməni isə vəsiyyət edən öz əli ilə yazıb imzalaya bilər.

Mülki qanunvericiliyə əsasən mirasın açıldığı yer miras qoyanın yaşayış yeri, bu məlum olmadıqda isə mirasın (əmlakın) olduğu yer mirasın açıldığı yer sayılır. Əgər miras müxtəlif yerlərdədirsə, mirasın açıldığı yer daşınmaz əmlakın və ya onun qiymətli hissəsinin olduğu yer sayılır, daşınmaz əmlak olmadıqda isə daşınar əmlakın və ya onun əsas hissəsinin olduğu yer mirasın açıldığı yer heab edilir.

Miras qoyanın bir neçə yaşayış yeri ola bilər. Lakin fiziki şəxs müvəqqəti fasilələr olsa da, bu yaşayış yerlərindən birində daimi yaşayır. Eyni zamanda bu hal müvəqqəti xaricdə yaşamış və orada ölmüş Azərbaycan Respublikası vətəndaşlarına da şamil edilir. Mülki Məcəllənin 1148-ci maddəsində təsbit olunur ki, müvəqqəti xaricdə yaşamış və orada ölmüş Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun xaricə getməzdən əvvəl Azərbaycan Respublikasında yaşadığı yer, bu yer məlum olmadıqda isə mirasın və ya onun əsas hissəsinin olduğu yer sayılır. Sual yarana bilər ki, bəs miras əmlakı başqa dövlətin ərazisində olarsa, vərəsəlik münasibəti öz həllini necə tapacaq? Mülki Məcəllənin 1149-cu maddəsinə əsasən xaricdə daimi yaşamış Azərbaycan Respublikası vətəndaşının ölümündən sonra mirasın açıldığı yer onun yaşadığı ölkə sayılır.

Öz xüsusi mülkiyyətində olan əmlakı istədiyi şəxsə və ya şəxslərə vəsiyyət etmək şəxsin müstəsna hüququdur. Başda Konstitusiyamız və digər qanunvericilik aktları bu hüquqa, yəni vəsiyyət azadlığı hüququna təminat verir. Lakin öz şəxsi marağı naminə bu hüquqa kobud müdaxilə edənlər, qanun pozuntusuna yol verən şəxslər də olur. Sözsüz ki, qanunvericilik bu şəxslər barəsində hüquqi məsuliyyət müəyyən edir. Belə ki, mülki qanunvericiliyə əsasən miras qoyanın son iradəsini həyata keçirməsinə qəsdən maneə törətmiş, yaxud vəsiyyət edənin vəsiyyətnamədə ifadə edilmiş son iradəsinə qarşı qəsdən cinayət və ya digər əxlaqsız hərəkət törətmiş şəxs (ləyaqətsiz vərəsə) nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə ola bilər. Bu şərtlə ki, həmin hallar məhkəmə tərəfindən təsdiq edilsin. Təbii ki, təqsirkar şəxsin əməllərində miras qoyana və ya digər vərəsələrə qarşı qəsdən cinayət və ya digər əxlaqsız hərəkətlər olarsa, həmin şəxs barəsində cinayət qanunvericiliyinin müvafiq maddələri üzrə cinayət işi açılır və təqsirkar şəxs cinayət məsuliyyətinə cəlb edilir.

Şəxs miras əmlak bölüşdürülənə qədər ləyaqətsiz vərəsə sayılarsa, ona mirasdan pay verilmir. Əgər şəxs mirası aldıqdan sonra məhkəmə tərəfindən ləyaqətsiz vərəsə sayılarsa, vərəsəlik üzrə aldıqlarının hamısını bəhərlər və gəlirlər ilə birlikdə qaytarmağa borcludur. Bu halda şəxsin payı vərəsəliyə çağırılmış qalan vərəsələrə keçir və onların arasında paylarına mütənasib surətdə bölüşdürülür. Qeyd edək ki, şəxsin ləyaqətsiz vərəsə sayılması barədə iddianı maraqlı şəxslər beş il ərzində irəli sürə bilər.

Qeyd edilən məsələlər miras açıldıqdan sonra, yəni miras qoyanın ölümündən sonra baş verən vərəsəlik münasibətlərinə aid edilir. Lakin vəsiyyət edənin hələ öz sağlığında vəsiyyətnamə ilə vərəsələrindən birini, bir neçəsini və ya hamısını mirasdan məhrum etmək hüququ da var. Bu hüquq vəsiyyət azadlığı prinsipinə əsaslanır və qanunvericilik bu imkanla çıxış edərək vəsiyyət edənə öz mülkiyyəti üzərində sərəncam vermək hüququna təminat vermişdir. Digər vərəsəlik hüququndan məhrumetmə hallarından biri də vəsiyyət edənin öz sağlığında məhkəməyə müraciət etməklə vərəsəni məcburi pay almaq hüququndan məhrum etməsidir. Məcburi pay almaq hüququndan məhrumetmə, ümumiyyətlə, vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallar olduqda mümkündür. Yəni şəxsin ləyaqətsiz vərəsə hesab olunması üçün ciddi əsaslar olduqda, məhkəmə tərəfindən məcburi pay almaq hüququndan məhrum edilir. Ləyaqətsiz vərəsə sayılmış və ya vəsiyyətnamənin birbaşa göstərişi ilə vərəsəlik hüququndan məhrum edilmiş şəxsin xeyrinə mirasdan imtinaya yol verilmir. Həmçinin həmin şəxslər vəsiyyətnaməyə daxil olmamış əmlaka da qanun üzrə vərəsə ola bilmirlər.

**Siyavuş BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

# Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir



Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir. Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə məqsədilə 57 yoxlama-reyd keçirilmiş, 9 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir.

İyul ayında təbii ehtiyatlardan istifadəyə və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə 48 müəssisəyə ekoloji ödəniş tətbiq olunmuşdur. 23 müəssisə tərəfindən təbii ehtiyatlardan istifadə və ətraf mühitə atılan tullantılara, 3 müəssisə tərəfindən isə mineral xammal bazasının bərpasına ayırmalara görə nazirliyin xüsusi hesabına ekoloji ödəniş həyata keçirilmişdir. Həmçinin 44 müəssisə tərəfindən atmosfer havasına atılan tullantılara görə xüsusi icazə sənədinin alınması üçün müraciət edilmiş və ödəniş haqqı nazirliyin xüsusi hesabına köçürülmüşdür. Ümumilikdə, hesabat ayında nazirliyin xüsusi hesabına 29085,11 manat ödəniş olmuşdur.

Ay ərzində Naxçıvan şəhəri, Ordubad, Babək, Kəngərli, Sədərək və Culfa rayonlarının 25-dən çox yaşayış məntəqəsi ərazisində ekoloji monitorinqlər aparılmışdır. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və yaşıllıqların vəziyyəti öyrənilmişdir. Mövcud çatışmazlıqların aradan qaldırılması üçün isə icrası məcburi göstərişlər verilmişdir. Sədərək Rayon Su Monitorinq Laboratoriyasında iyul ayı ərzində Arazın və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 138 analiz aparılmışdır.

Ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağında 50 hektar sahədə cərgələr arası kultivasiya olunmuş, sahənin otu biçilmiş, suvarma aparılmış, Əshabi-kəhf ziyarətgahına gedən yolun kənarlarındakı yaşıllıq sahəsinin suvarılması məqsədilə 2100 metr məsafədə dəmir və plastik borular vasitəsilə su xətti çəkilmiş, ziyarətgah ətrafındakı damcılı suvarma sistemində təmir işləri görülmüşdür. Hesabat ayında Uzunoba Su Anbarının yuxarı hissəsində 220 dibçəkdə yetişdirilmiş tinglərlə bərpa aparılmış, Qoşadizə, Xətai, Quşçuluq tingçilik sahələrinə aqrotexniki qaydada qulluq göstərilmiş, 10 hektar sahə suvarılmış, 1,5 hektar sahə alaq otundan təmizlənmişdir. Dövlət meşə fondu ərazilərində quru budama işləri aparılmış, 225 kubmetr odun Naxçıvan şəhərində yerləşən hərbi hissələrə verilmişdir.

Ötən ay Fövqəladə Hallar Nazirliyi ilə birgə hazırlanmış Tədbirlər Planına uyğun olaraq bir sıra avtomobil yollarının kənarlarında yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə quru otlar biçilərək ərazidən kənarlaşdırılmışdır. Eyni zamanda Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birgə Culfa və Ordubad rayonlarının ərazisində yerləşən meşə fondu ərazilərinə baxış keçirilmiş, baş verə biləcək yanğının qarşısının alınması məqsədilə su mənbələri müəyyən edilmişdir.

İyul ayında Şahbuz rayonunun Batabat, Kükü dağı, Ordubad rayonunun Tüklü çimən, Dib yurd və Tillək yurdu, Culfa rayonunun Kola və Dəmirli yaylaqları ərazisində məskunlaşmış sahibkar, fermer və ailə təsərrüfatçıları ilə görüşlər keçirilmiş, yaylaqlardan istifadə qaydaları, yanğından mühafizə tədbirləri və baytarlıq xidmətinin göstərilməsinə dair maarifləndirici söhbətlər aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Qızlar arasında şəhər birinciliyi



*Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə qızlar arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

Birinciliyin keçirilməsində məqsəd məktəblilərin yay tətilində asudə vaxtlarının daha da səmərəli keçirilməsini təşkil etmək və onları sağlam həyat tərzinə uyğunlaşdırmaqdan ibarət olub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Üzgüçülük Mərkəzinin birgə təşkilatçılığı ilə üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə keçirilən birincilikdə 2 yaş qrupunda 20 idmançı iştirak edib.

Yarışın yekununa əsasən 2006-2007-ci illər təvəllüdlü idmançılar arasında Fidan İsgəndərli qalib adını qazanıb. Zəhra Məmmədova ikinci, Məsmə Cabbarova üçüncü olub. 2008-2009-cu illər təvəllüdlü idmançılar arasında isə İnci Allahverdiyeva finiş xəttinə hamıdan tez çatıb. Alsu Abdullayeva və Tahirə Əlizadə müvafiq olaraq ikinci və üçüncü yerlərlə kifayətləniblər.

Sonda hər yaş qrupunda yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayonunun Xələc kəndində yaşamış Mehdiyev Habil Səyyad oğlunun adına olan JN-115 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Müslümov Tural İmaməddin oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Məsul katib: Muxtar MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 718